

ASİYA İNKİŞAF BANKI və

# AZƏRBAYCAN

www.adb.org/azerbaijan

2008

FAKT KİTABÇASI

Son illərdə Azərbaycanın iqtisadiyyatında sürətli artım müşahidə olunmuş və 2001-ci ildən başlayaraq ümumi daxili məhsul orta hesabla 18% artaraq 2007-ci ildə 25%-ə çatmışdır. 2008-ci ildə də böyük artımın müşahidə olunacağı gözlənilir. Güclü nailiyyətin əldə olunması əsasən Sövet İttifaqının dağılmasından sonra həyata keçirilmiş iqtisadi islahatların, eləcə də hazırkı neft istehsalında olan artımın təsiri ilə bağlıdır.

Belə bir hiss olunan artıma baxmayaraq, yoxsulluq səviyyəsi 20,8% olmaqla nisbətən yüksək səviyyədədir. Sürətli iqtisadi artım köhnəlməkdə olan, standartlara uyğun olmayan fiziki və sosial infrastruktura güclü təsir edir. Eyni zamanda neft ixracatçılarından daxil olan böyük həcmdə xarici vəsait axını inflyasiyanı gücləndirir və valyuta məzənnəsinin səviyyəsini artırır.

Bu cür inkişaf istiqamətlərini etiraf etməklə Azərbaycan Hökuməti qeyri-neft sektorunda dayanıqlı iqtisadi inkişafı təmin etmək, dağılmaqda olan fiziki infrastrukturu bərpa etmək və ölkə regionları arasında bərabərsizliyi azaltmaq məqsədilə bir çox proqramlar həyata keçirmişdir.

## AİB-lə əlaqələr

1999-cu ildə Asiya İnkişaf Bankına üzv olandan etibarən Azərbaycan 370 milyon ABŞ dolları məbləğində kredit almışdır.

AİB-in Azərbaycanda olan əməliyyatları dövlət və özəl sektorları əhatə edir və Hökumətin inkişaf strategiyalarına uyğun olaraq həyata keçirilmişdir. AİB özəl sektorda öz iştirakını əhəmiyyətli dərəcədə artırmış və ölkədə kifayət qədər kapitala malik olmayan bank sektorunun gücləndirilməsi, eləcə də özəl infrastrukturun inkişafına kömək etmişdir. Özəl banklar fərdi sahibkarlara, eləcə də kiçik və orta ölçülü müəssisələrə kiçik həcmli kreditlərin verilməsində əsas mənbə olduqlarına görə onlar iqtisadiyyatda vacib mövqe tuturlar. AİB həmçinin Azərbaycanın yol sektorunda, xüsusilə yolların inkişafında əhəmiyyətli rol oynamaqdadır. Respublikada yolların inkişafı proqramı üçün təqdim edilmiş çoxtranşlı maliyyələşmə mexanizmi AİB və Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsini müəyyən etmişdir.

AİB həmçinin regional şəhərlərdə su təchizatı və kanalizasiya qurğularının bərpa edilməsi üçün kreditlər vermiş, eləcə də uzun-müddətli dayanıqlı iqtisadi və sosial inkişaf strategiyasının və proqramların hazırlanması üçün Hökumətə dəstək məqsədilə texniki yardımlar ayırmışdır. AİB yoxsulluğun azaldılması və dayanıqlı iqtisadi artımın gücləndiriməsi istiqamtində Hökumətin məqsəd və fəaliyyətinə şərik olur.

Cədvəl 1. **Azərbaycanın İnkişaf Göstəriciləri**

| | |
|---|---|
| **Qeyri ƏİH** | |
| Əhali, milyon | 8.53 (2007) |
| Əhalinin illik artım səviyyəsi (%) | 1.1 (2005–2007) |
| Gənclərin maariflənmə səviyyəsi | 98.8 (1999) |
| Şəhər ərazilərində əhalinin faizi | 50.0 (2006) |
| **ƏİH** | |
| Gündəlik 1 ABŞ dolları ilə yaşayan əhalinin faizi | … |
| Respublika yoxsulluq səviyyəsindən aşağı yaşayan əhalinin faizi | 20.8 (2006) |
| Hər 1000 doğuşa 5 yaşından aşağı olan uşaqların ölüm səviyyəsi | 88 (2006) |
| Təmizlənmiş içməli sudan istifadə edən əhalinin faizi | 77 (2004) |

… = məlumat yoxdur, ƏİH = Əsrin İnkişaf Hədəfləri.

Mənbə: AİB. 2007. *Əsas göstəricilər 2007*. Manila.
AİB. 2008. *İlkin Statistika 2008*. Manila.
UNESCO. 2008. Statistik məlumat Mərkəzi üçün İnstitut.
UNSD. 2008. Əsrin İnkişaf Göstəricilərinin Online Bazası.

Asiya İnkişaf Bankı ADB

Cədvəl 2. **Azərbaycanın İqtisadi Göstəriciləri, 2003–2007**

| İqtisadi göstərici | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| Adam payına ÜDG ($) | 820 | 950 | 1270 | 1850 | ... |
| ÜDM artımı (il üzrə dəyişən faiz) | 10,4 | 10,2 | 29,6 | 33,4 | 25,4 |
| İQİ (il üzrə dəyişən faiz) | 2,2 | 6,7 | 9,6 | 8,3 | 16,7 |
| İşsizlik səviyyəsi (%) | 1,4 | 1,4 | 1,4 | 1,3 | 1,3 |
| Maliyyə balansı (ÜDM-in %) | -3,0 | -2,0 | -1,6 | -3,4 | -2.1 |
| İxrac artımı (il üzrə dəyişən faiz) | 13,9 | 42,6 | 104,4 | 70,1 | 46,6 |
| İdxal artımı (il üzrə dəyişən faiz) | 49,3 | 31.5 | 21,4 | 21,1 | 5,2 |
| Cari hesab (ÜDM-in %) | -27,8 | -29,8 | 1,3 | 18,7 | 27,0 |
| Xarici borc (ÜDG-in %) | 25,3 | 24,4 | 15,6 | 10,9 | ... |

… = məlumat yoxdur, İQİ = İstehlakçı Qiymət İndeksi, ÜDM = ümumi daxili məhsul, ÜDG = ümumi daxili gəlir.

Mənbə: AİB.2008. *Asiya İnkişafına Nəzər 2008*. Manila.
Dünya Bankı. 2008. Onlayn Qlobal İnkişaf Maliyyələşməsi.
Dünya Bankı. 2008. Onlayn Dünya İnkişaf göstəriciləri.

Cədvəl 3. **Azərbaycan: 2007 il. Təsdiq edilmiş Kredit, TY və Qrant** (milyon ABŞ dolları)

| Kreditlər | | | | |
|---|---|---|---|---|
| Suveren | Qeyri-suveren | TY | Qrant | Cəmi |
| 200,00 | 56,00 | – | – | 256,00 |

– = sıfır.

| | |
|---|---|
| Artan borc vermə (31 dek 2007-ci il tarixinə) | : 370,00 milyon ABŞ doll |
| Artan ödəniş (31 dek 2007-ci il tarixinə) | : 67,12 milyon ABŞ doll |

Cədvəl 4. **Azərbaycan: 31dekabr 2007-ci il tarixinə AİB-in artan bor vəsaitləri**

| Sektor | Kredit sayı | Məbləğ (milyon $) | %[a] |
|---|---|---|---|
| Kənd Təsərrüfatı və Təbii Sərvətlər | 1 | 22,00 | 5,95 |
| Maliyyə | 4 | 66,00 | 17,84 |
| Nəqliyyat və komunikasiya | 4 | 252,00 | 68,11 |
| Su Təchizatı, kanalizasiya və Çirkab suların idarəedilməsi | 2 | 30,00 | 8,11 |
| Cəmi | 11 | 370,00 | 100,00 |

[a] = yuvarlaqlaşma səbəbindən cəmi toplanmır.

Cədvəl 5. **Azərbaycan: Suveren borcvermə üçün Portfolio icrasında keyfiyyət göstəriciləri, 2006–2007**

| İcra edilməkdə olan kreditlər (2007-ci il dekabr ayına) | 7 | |
|---|---|---|
| | 2006 (milyon $) | 2007 (milyon $) |
| Bağlanmış müqavilə/öhdəlik | 20,74 | 30,62 |
| Ödənişlər | 4,08 | 14,54 |
| Risk altında olan kreditlər (%) | 40,00 | 28,60 |

2006-cı il üçün Ölkə üzrə yeni Strategiya və Proqramı www.adb.org/Documents/CSPs/AZE/2004/default.asp. internet səhifəsindən tapmaq mümkündür.

## Yardımın təsirləri

AİB-in Azərbaycanda fəaliyyəti yalnız 2000-ci ildə başlamışdır və AİB tərəfindən birbaşa maliyyələşdirilən və idarəedilən layihələrin bir çoxu yoxsulluğun azaldılmasına əhəmiyyətli təsir etmişdir.

AİB Mingəçevirdə məcburi köçkünlərin cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə pilot layihə üçün Yoxsulluğun Azaldılması üzrə Yaponiya Fondundan 2,5 milyon qrant vəsait ayırmışdır. Layihə nəticəsində evlərinin təkmilləşdirilməsi və iş yerlərinin açılması ilə 412-dən çox ailənin yaşayış şəraitində əhəmiyyətli dəyişikliklər yarandı. Bununla 12000 nəfər əhali faydalanmışdır ki, onların 73%-ni yoxsullar təşkil etmişdir.

Yoxsulluq səviyyəsi respublikanın orta yoxsulluq səviyyəsindən əhəmiyyətli dərəcədə yüksək olan dörd daşqına meyilli ərazilərdə 12 rayonun mühafizəsi üçün tədbirlərin görülməsi məqsədilə 2003-cü ildə Asiya İnkişaf Fondundan 22 milyon ABŞ dolları məbləğində kredit təsdiq edilmişdir. Layihə çərçivəsində beş şəhər və 43 kənd mühafizə olunacaq və 76790 ha daşqına məruz qalan ərazilərdə yaşayan 200000 nəfərdən çox əhalinin yaşayış səviyyəsi gücləndiriləcəkdir. Bunun nəticəsində daşqın səbəbindən baş verən 4,83 milyon ABŞ dolları məbləğində illik itkilərin qarşısı alınacaqdır.

Üç şəhərdə əhalini, sənaye müəssisələrini və kiçik sahibkarları təkmilləşdirilmiş su təchizatı və kanalizasiya sistemi ilə təmin etmək məqsədilə 2004-cü ildə cəmi 30 milyon ABŞ dolları məbləğində iki kredit təsdiq edilmişdir. Layihə nəticəsində 110000 nəfər əhali faydalanacaqdır.

2005-ci ildə AİB Şərq-Qərb Avtomagistral yolunun təkmilləşdirilməsi üçün cəmi 52 milyon ABŞ dolları məbləğində iki kredit təsdiq etmişdir. Layihə çərçivəsində avtomagistralın 127 kilometr (km) uzunluğunda Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhədi hissəsi və 65 km birləşdirici yerli yollar bərpa ediləcək, eləcə də sektorda institusional imkanları gücləndirmək üçün siyasi islahatların aparılmasına dəstək veriləcəkdir.

2006-cı ildə AİB özəl sektorda fəaliyyətə başladı və seçilmiş xüsusi kommersiya banklarına cəmi 10 milyon ABŞ dolları məbləğində kreditlər və bərabərlik investisiyalarını təsdiq etdi.

2007-ci ildə AİB bəzi aparıcı banklara cəmi 56 milyon ABŞ dolları məbləğində üç Kredit təsdiq etmişdir. Bank of Bakuya verilmiş 6 milyon ABŞ dolları məbləğində kredit SME-lərin maliyyələşdirilməsi üçün imkanları artıracaqdır. Bank Respublikaya verilmiş 10 milyon ABŞ dolları məbləğində subordinativ kredit onun kapital bazasını gücləndirəcək və Azərbaycan Beynəlxalq Bankına verilmiş 40 milyon ABŞ dolları məbləğində subordinativ kredit Azərbaycanda geniş maliyyə vasitəçiliyini təmin etməklə onun borc vermə imkanlarını artıracaqdır. Dövlət sektorunda isə AİB Azərbaycanda Yol Şəbəkəsinin İnkişafı proqramı üçün 500 milyon ABŞ dolları məbləğində ÇMM-ni təsdiq etmiş və bunun 200 milyon ABŞ dolları məbləğində birinci tranşı Masallı – Astara Avtomagistralının tikintisini maliyyələşdirmək üçün nəzərdə tutulmuşdur.

## Gələcək İstiqamətlər

2008-ci ildə, AİB–in Azərbaycandakı əməliyyatları yollar, su təchizatı və sanitariya, özəl sektorun inkişafı ilə bağlı olmuşdur ki, bunlar da Hökumətin inkişaf prioritetlərinə uyğundur.

## Fəaliyyətin əsas hədəfləri

Azərbaycanın əsas hədəfləri qeyri-neft sektorunda iqtisadi inkişafın gücləndirilməsi, infrastrukturun inkişaf etdirilməsi, regionlarda iqtisadi bərabərsizliyi aradan qaldırmaqla sosial inkişafın daha əhatəli təşkil edilməsi, idarəciyiliyin gücləndirilməsi və özəl-sektorun inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır.

Hökumətin layihələrə dair qrafikinə uyğunlaşdırmaq məqsədilə AİB layihələrin hazırlanması ilə bağlı prosedurlarını nizamlamalıdır. AİB tərəfindən görülən tədbirlər CSP, mövcud portfolionun icrası, digər inkişaf partnyorlarının fəaliyyəti və institusional mexanizm vasitəsilə idarəolunacaqdır. Yeni layihə icraçı orqan tərəfindən tam qəbul ediləcəyi və social baxımdam icma tərəfindən tam bəyəniləcəyi zaman həyata keçiriləcəkdir.

## Tərəfdaşlıq

2005-ci ilin May ayında AİB ölkə üzrə strategiya və proqramların Hökumətin yeni uzun-müddətli inkişaf strategiyası ilə uzlaşdırılması məqsədilə Azərbaycan Hökuməti, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı və Dünya Bankı ilə birgə bəyannamə imzalamışdır. Yoxsulluğun Aradan Qaldırılması və İqtisadi İnkişaf üzrə dövət proqramı çərçivəsində ilk yaradılmış sektor üzrə işçi qruplar Dövlət strategiyasında gerçək və əlaqələndirilmiş idarəçiliyi təmin etmək məqsədilə maraqlı tərəfləri bir araya toplayacaqdır.

AİB göstərilən xidmətlərin səmərəliliyini, keyfiyyətini və dayanıqlığını gücləndirmək məqsədilə sivil cəmiyyət təşkilatları ilə əməkdaşlıq edir. Məsələn, AİB 2006-cı ildə Azərbaycanda öz inkişaf fəaliyyəti və İİV/QİÇS-ə dair proqramları ilə bağlı forum təşkil etmişdir. Tədbirdə ölkənin aparıcı sivil cəmiyyətin qrupları, eləcə də hökumət sektorunun nümayəndələri iştirak etmişlər. Müzakirələr zamanı bəyan edilmişdir ki, hökumət və sivil cəmiyyət qrupları İİV/QİÇS problemləri üzərində birgə işləməlidirlər.

## Birgə maliyyələşdirmə və satınalma

Birgə maliyyələşdirmə əməliyyatları AİB-in maliyyə tərəfdaşları—hökumət və onun təşkilatları, çoxşaxəli maliyyə institutları və kommersiya təşkilatlarına AİB-in layihələrinin maiyyələşdirilməsində iştirak etmək üçün imkanlar yaradır. Əlavə maliyyə vəsaiti qrant, rəsmi kredit, yaxud kreditlərin təsirinin artırılması vasitələri formasında təqdim edilir.

2007-ci ilin sonuna Azərbaycan üzrə birbaşa artan əlavə dəyər maliyyələşməsi iki texniki yardım layihələri üçün 0,85 milyon ABŞ dolları olmuşdur.

Birgə maliyyələşmə ilə həyata keçirilən layihələri www.adb.org/documents/Fact_Sheets/Azerbaijan/cofinancing.asp. səhifəsində tapmaq mümkündür.

Cədvəl 6. **İEÜÖ-ə AİB-in Yardımı, 2006–2007**

| | 2006[a] (milyon $) | 2007 (milyon $) | Dəyişmə (%) |
|---|---|---|---|
| Borcvermə | 7389,29 | 10105,60 | 36,76 |
| AİF Suveren | 1272,39 | 1892,84 | 48,76 |
| AKE Suveren | 5541,90 | 7347,48 | 32,58 |
| AKE Qeyri suveren | 575,00 | 865,27 | 50,48 |
| Dövlət Sektoru | 150,00 | 105,00 | (30,00) |
| Özəl sektor | 425,00 | 760,27 | 78,89 |
| Bərabərlik investisiyası | 250,50 | 79,75 | (68,16) |
| Qrantlar | 534,40 | 672,71 | 25,88 |
| Texniki Yardım | 241,18 | 243,44 | 0,94 |

AIF = Asiya İnkişaf Fondu, AKE = Adi Kapital Ehtiyatları.
[a] = Dayandırılmış kredit, texniki Yardım, qrant və bərabərlik investisiyalarını nəzərə almadan uyğunlaşdırılmışdır.

Cədvəl 7. **Ölkələr üzrə artan qeyri suveren əməliyyatlar portfoliosunun bölgüsü, 1983–2007**

| Ölkə | Layihələrin sayı | AİB tərəfindən təsdiq edilmiş (Milyon $) |
|---|---|---|
| Hindistan | 33 | 1400,73 |
| Çin Xalq Respublikası | 20 | 1290,02 |
| İndoneziya | 16 | 824,15 |
| Pakistan | 27 | 721,38 |
| Qazaxıstan | 5 | 550,00 |
| Fillipin | 26 | 448,15 |
| Tayland | 10 | 318,53 |
| Vyet Nam | 8 | 300,00 |
| Şri Lanka | 13 | 280,08 |
| Banqladeş | 8 | 242,18 |
| Digər İEÜÖ | 26 | 438,20 |
| Regional | 36 | 849,57 |

İEÜÖ = İnkişaf Etməkdə olan Üzv Ölkələr.
Mənbə: AİB 2007ci il. Statistika Baza Sistemi.

Mallar, işlər və məsləhətçi xidmətləri üzrə Azərbaycandan olan şirkətlər və məsləhətçilərlə bağlanmış müqavilələrin xülasəsini www.adb.org/Documents/Fact_Sheets/Azerbaijan/procurement.asp səhifəsində tapmaq mümkündür.

## Azərbaycan və Asiya İnkişaf Bankı haqqında

Azərbaycan regional üzvlər arasında 18-ci və ümumilikdə isə 26 ən böyük payçıdır.

| **AİB-ə üzvlük** | |
|---|---|
| Üzv olmuşdur | 1999 il |
| Payı | 15736 (0,44%) |
| Səs hüququ | 28968 (0,65%) |

**Fil Bouven** Azərbaycanı AİB-in Direktorlar Şurasında təmsil edən İcraçı Direktor və **Derek Ruken-Smit** isə İcraçı Direktor əvəzidir.

**Fərəc Hüseynbəyov** AİB-in Azərbaycandakı Nümayəndəliyi üzrə məsul şəxsdir. Azərbaycan daimi nümayəndəliyi (ADN) 2004-cü ildə açılmış və AİB, Hökumət, özəl sektor və sivil-cəmiyyətin maraqlı tərəfləri arasında ilkin fəaliyyət vasitəsi rolunu oynayır. AND siyasi dialoq aparır və Azərbaycanda İnkişaf məsələləri üzrə bilik bazasə kimi fəaliyyət göstərir.

AİB-lə işlərin idarəedilməsini həyata keçirən Azərbaycanın hökumət orqanı İqtisadi İnkişaf Nazirliyidir.

## Asiya İnkişaf Bankı haqqında

AİB çoxtərəfli inkişaf bankıdır və onun 67 üzvü vardır, o cümldən onlardan 48-i regionlarda 19 isə dünyanın digər hissəsində yerləşir. İnkişaf etməkdə olan üzv ölkələrinə kömək məqsədilə AİB siyasi dialoq, kreditlər, bərabərlik investisiyaları, zəmanətlər, qrantlar və texniki yardımlar kimi əsas vasitələrdən istifadə edir. Son 4 il ərzində (2004-2007) AİB-in illik borcvermə məbləği orta hesabla 7 milyard ABŞ dolları təşkil edir, TY məbləği orta hesabla 218 milyon ABŞ dolları və qrantla maliyyələşdirilən layihələrin qiyməti 616 milyon ABŞ dollarına bərabərdir. 2007-ci ildə borc vermə məbləği 10 milyard ABŞ dolları olmuşdur, TY məbləği 243 milyon ABŞ dolları, qrantla maliyyələşdirilən layihələr isə 673 milyon ABŞ dollarına bərabər olmuşdur.

## Əlaqə


### Azərbaycan Daimi Nümayəndəliyi

C.Cabbarlı küç 44
Caspian Plaza, 1-ci mərtəbə
Bakı şəhəri AZ1065, Azərbaycan
Tel +994 12 437 3477
Faks +994 12 437 3475
adbazrm@adb.org
www.adb.org/AZRM

### AİB Baş İdarə

6 ADB Avenue, Mandaluyong City
1550 Metro Manila, Filippin
Tel +63 2 632 4444
Faks +63 2 636 2444
information@adb.org

### İqtisadi İnkişaf Nazirliyi

AZ0160 Bakı, Azərbaycan
Tel +994 12 492411
Faks +994 12 490240
www.economy.gov.az/az/index.html


### AİB-in faydalı internet səhifələri

Asiya İnkişaf Bankı
**www.adb.org**

Ölkənin internet səhifəsi
**www.adb.org/azerbaijan**

Asiya İnkişafına Nəzər
**www.adb.org/Documents/Books/ADO/2008/AZE.pdf**

İllik hesabatlar
**www.adb.org/Documents/reports/annual_report/2007/**

Kitabxana
**www.adb.org/Publications/Depositories/aze.asp**


Bu nəşrdə “$” işarəsi ABŞ dollarını bildirir.
Başqa cür göstərilmədiyi təqdirdə məlumatlar 31 dekabr 2007-ci il tarixinə olan məlumatlardır. Fakt kitabçaları hər il mart ayında yenilənir.

mart 2008-ci il